İPƏK YOLU, No.2, 2024, səh.75-83
https://doi.org/10.30546/1810-911X.2024.2.09

# AQROBİZNES SİSTEMİNDƏ MALİYYƏ MEXANİZMİNİN MAHİYYƏT VƏ MƏZMUNUNA NƏZƏRİ BAXIŞ

**Aygül Səlimova**

Aqrar Tədqiqatlar Mərkəzi, Bakı, Azərbaycan
e-mail: ayguls7689@gmail.com

**Xülasə.** Tədqiqatın məqsədi aqrobiznes sistemində maliyyə mexanizminin mahiyyətinə (məzmununa) nəzəri baxışların qiymətləndirilməsindən ibarətdir. Tədqiqatın nəticələri aqrobiznes sistemində maliyyə mexanizminin idarəedilməsinə maliyyə tənzimlənməsi və hüquqi mexanizmin formalaşdırılması vasitəsilə yanaşmanın məqsədəuyğunluğunu müəyyənləşdirməyə imkan verdi. Məqalədə dövlət qurumlarının fəaliyyəti çərçivəsində inzibati mexanizm formalaşdırmaqla müsbət nəticənin əldə olunması əsaslandırılmışdır.

**Açar sözlər:** Aqrobiznes, sistem, maliyyə, mexanizm, məzmun, plan, sığorta.

## THEORETICAL VIEW ON THE ESSENCE AND CONTENT OF THE FINANCIAL MECHANISM IN THE AGRIBUSINESS SYSTEM

**Aygul Salimova**
*Agricultural Research Center, Baku, Azerbaijan*

**Abstract.** The purpose of the study is to evaluate theoretical views on the essence (content) of the financial mechanism in the agribusiness system. The results of the study made it possible to determine the feasibility of approaching the management of the financial mechanism in the agribusiness system with financial regulation and the formation of a legal mechanism. The article substantiates the achievement of a positive result by forming an administrative mechanism within the framework of the activities of government agencies.
**Keywords:** Agribusiness, system, finance, mechanism, content, plan, insurance.

## ТЕОРЕТИЧЕСКИЙ ВЗГЛЯД НА СУЩНОСТЬ И СОДЕРЖАНИЕ ФИНАНСОВОГО МЕХАНИЗМА В СИСТЕМЕ АГРОБИЗНЕСА

**Айгуль Салимова**
*Центр сельскохозяйственных исследований, Баку, Азербайджан*

**Резюме.** Цель исследования состоит в оценке теоретических взглядов на сущность (содержание) финансового механизма в системе агробизнеса. Результаты исследования позволили определить целесообразность подхода к управлению финансовым механизмом в системе агробизнеса путем финансового регулирования и формирования правового механизма. В статье обосновано достижение положительного результата путем формирования административного механизма в рамках деятельности государственных органов.
**Ключевые слова:** Агробизнес, система, финансы, механизм, содержание, план, страхование.

## 1. Giriş

Xarici ölkələrin qabaqcıl təcrübəsindən aydın olur ki, maliyyə resurslarının balanslı inkişaf etməməsinə görə maliyyə sisteminin özünün deqradasiyaya uğraması, iqtisadiyyatın tənəzzülü və dağılması ilə nəticələnir. Buna görə dövlət maliyyə siyasətinin əsas məqsədlərindən biri cəmiyyətin sosial-iqtisadi inkişafı və əhalinin həyat səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi üçün əlverişli maliyyə şəraitinin yaradılmasıdır [9, 10, 14, 17]. Bu kimi məqsədlərin həyata keçirilməsi maliyyə mexanizmi vasitəsilə reallaşdırılır.

Müxtəlif alimlər, maliyyə mexanizminin mahiyyətini və məzmununu nəzərə alaraq, onu iqtisadi inkişaf üçün əlverişli şəraiti təmin etmək məqsədilə cəmiyyətdə istifadə olunan müəyyən maliyyə münasibətlərini təşkil etməyin müxtəlif yollarının məcmusu kimi təqdim edirlər. Maliyyə mexanizminin konseptual aparatını araşdıraraq, maliyyə sisteminin formalaşması prosesində alimlərin fikirləri dəyişdi. Eyni zamanda, mövcud fərqlərə və yanaşmaların müxtəlifliyinə, o cümlədən maliyyə mexanizminin öyrənilməsinə baxmayaraq, müxtəlif iqtisadi məktəblərin nümayəndələrinin baxışlarının və nəzəri konsepsiyaların oxşarlığını görmək asandır. Burada xüsusi olaraq təxminən oxşar komponent elementlərinin (formaların, üsulların, rçaqların və alətlərin toplusunun) təsviri müşahidə olunur. Qeyd olunanlardan belə nəticəyə gəlmək olur ki, aqrobiznes sistemində maliyyə mexanizminin mahiyyətinin və məzmununun nəzəri baxışlarının şərhinə böyük zərurət vardır. Ona görə də məqalənin mövzusu aktuallığı ilə fərqlənir.

## 2. Maliyyə mexanizminin mahiyyəti və məzmunu

Bir sıra alimlərin maliyyə mexanizminin mahiyyəti haqqında fikirlərini təqdim edək. Maliyyə mexanizmi dedikdə, L.İ. Yuzvoviçin, M.S. Maramıginanın və E.Q. Knyazevoyun fikrincə “bu, subyektin (dövlətin) maliyyə sisteminin obyektinə (maliyyə münasibətlərinə) təsir vasitəsidir, maliyyə funksiyalarının təcrübi həyata keçirilməsinin xarici təzahür formasıdır. Maliyyə mexanizmi iqtisadi sistem çərçivəsində müvafiq maliyyə siyasətini təmin etmək üçün dövlət tərəfindən maliyyədən istifadənin müxtəlif forma və üsullarının məcmusu kimi də təqdim edilə bilər. Maliyyə mexanizmi bir-biri ilə əlaqəli bir sıra alt sistemlərdən ibarətdir:

- Maliyyə hüququ;
- Maliyyə planlaşdırması;
- Cari nəzarət;
- Maliyyə nəzarəti;
- Maliyyə informasiyası” [18, s.83].

T.M. Kovalyov qeyd edir ki, maliyyə siyasətinin idarə edilməsi birbaşa maliyyə mexanizmi vasitəsilə həyata keçirilir və bu tərifi verir: “maliyyə mexanizmi - cəmiyyətin iqtisadi və sosial inkişafı üçün əlverişli şərait yaratmaq məqsədilə cəmiyyət tərəfindən istifadə olunan maliyyə münasibətlərinin təşkili formaları, maliyyə mənbələrinin formalaşması və istifadəsi üsullarıdır” [12, s.22]. Onun fikrincə, bu tərif, əsasən, makroiqtisadi maliyyə-iqtisadi proseslərə, o cümlədən dövlət və bələdiyyə maliyyə tənzimlənməsinin vəzifələrinə daha çox uyğundur.

G. Litvinçenko göstərir ki, “maliyyə mexanizmi maliyyə idarəetməsinin formalarını, üsullarını və vasitələrini özündə birləşdirir. Bir tərəfdən, maliyyə müəyyən fəaliyyətlərə biganədir və maliyyə tərifləri eyni məna daşıyan müxtəlif sahələrə tətbiq oluna bilər. Digər tərəfdən, hər bir fəaliyyət növündə texnoloji, təşkilati və idarəetmə prosesləri biznes bölmələri və dövlət qurumlarının maliyyələşdirilməsi şəklində fərqlərə səbəb olur” [6, s.199].

S.N. Medvedeva və T.F. Kutuzova hesab edir ki, "maliyyə mexanizmi maliyyə münasibətlərini idarə etmək yollarının məcmusudur. Maliyyə mexanizminə aşağıdakılar daxildir:

– Maliyyə münasibətlərinin təşkilati formalarının məcmusu;

– Mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş fondların formalaşdırılması və istifadəsi qaydası;

– Maliyyə planlaşdırma metodları;

– Maliyyə və maliyyə sisteminin idarəetmə formaları;

– Maliyyə qanunvericiliyi" [13, s.17].

Juma qızı Raisa hesab edir ki, «dövlət maliyyə siyasətinin əsas məqsədlərindən biri cəmiyyətin sosial-iqtisadi inkişafı, əhalinin həyat səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi üçün əlverişli maliyyə şəraitinin yaradılmasıdır və bu məqsədlərin həyata keçirilməsi maliyyə mexanizmi vasitəsilə həyata keçirilir». O, maliyyə sisteminin ümumiyyətlə tanınmış elementlərini nəzərə alaraq qeyd edir ki, «kənd təsərrüfatı sahəsinin spesifikliyi bu sahədəki dövlətin maliyyə siyasətinə də təsir göstərir və aqrar sahənin maliyyə mexanizmi və maliyyə tənzimlənməsi yolu ilə həyata keçirilən müəyyən tədbirlərdə öz əksini tapır» [11, s.25-26].

O.Y. Starkovanın fikrincə, «maliyyə mexanizmi dövlət tərəfindən müəyyən edilmiş maliyyə münasibətlərinin formaları, növləri və üsulları sistemidir. Maliyyə mexanizmi maliyyə münasibətlərinin təşkilati formalarının məcmusundan, maliyyə resurslarının formalarından, fondların mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş olmaqla formalaşdırılması və istifadəsinin prosedur və üsullarından, maliyyə planlaşdırılması üsullarından, maliyyə sisteminin idarə edilməsi formalarından, maliyyə qanunvericiliyindən ibarətdir (o cümlədən, dövlət gəlirlərinin və xərclərinin müəyyən edilməsində, büdcə sisteminin və büdcədənkənar fondların təşkilində, müəssisələrin maliyyəsində, qiymətli kağızlar bazarında, sığorta xidmətlərində və s. istifadə olunan qanunvericilik norma və qaydaları, dərəcə və prinsiplər sistemindən)» [16, s.23].

Professor S.M. Məmmədov hesab edir ki, «əmtəə-pul münasibətlərinin fəaliyyət göstərdiyi heç bir ölkənin iqtisadiyyatı maliyyə mexanizmi olmadan keçinə bilməz. Deməli, iqtisadi siyasətin maliyyə tərəfi də olmalıdır. Maliyyə siyasəti iqtisadi siyasətin tərkib hissəsidir. Maliyyə siyasəti maliyyə münasibətlərindən fərqli olaraq üstqurumun tərkibinə daxildir. İqtisadi siyasətin həyata keçirilməsi, cəmiyyətin ümumi inkişaf istiqamətləri, maliyyə siyasətinin formalaşması və təşkili səviyyəsindən çox asılıdır. Bu amil bazar iqtisadiyyatı şəraitində xüsusilə böyük əhəmiyyət kəsb edir. Çünki bazar iqtisadiyyatı, hər şeydən əvvəl, maliyyə-kredit mexanizmi əsasında qurulur. Dövlət iqtisadiyyatı əsas etibarilə maliyyə vasitəsilə tənzimləyir» [7, s.89].

N.E. Solovyeva qeyd edir ki, «kənd təsərrüfatı istehsalında maliyyə mexanizminin sənaye xüsusiyyətlərini nəzərə alaraq, maliyyə münasibətləri barter əməliyyatlarını, nağdsız hesablamaları nəzərə almalıdır. Üstəlik, maliyyə mexanizmi güzəştli kreditləşmə, vergi bazasının azaldılması üzərində qurulmalıdır. Artıq indi hökumət kənd təsərrüfatı

müəssisələrinin subyektlərinə güzəştli faizlə kredit vermək üçün dövlət dəstəyi mexanizmini, habelə dövlətin kənd təsərrüfatı istehsalını büdcə, ölkənin təsis qurumlarının büdcələri və büdcədənkənar mənbələr hesabına maliyyələşdirdiyi direktiv büdcə maliyyələşdirməsini tətbiq etdi» [15, s.103-104].

Professor İ.H. İbrahimovun fikrincə, «aqrar sahədə iqtisadi proseslərdə fəal iştirak edən və iqtisadi fəaliyyətə təsir edən iqtisadi mexanizmlərdən biri maliyyə-kredit mexanizmidir. Maliyyə istehsal və istehlak prosesində pul vəsaitinin hərəkəti ilə müşayiət olunan fondların yaradılması və onun bölüşdürülməsini özündə əks etdirən iqtisadi münasibətlər sistemidir. Maliyyə məcmu ictimai məhsulu bölür, gəlir və yığımın formalaşmasını təmin edir. Maliyyələşmə vasitəsi ilə vəsaitlərin məqsədli istifadəsi nəzərdə tutulur və təkrar istehsala normal şərait yaradılır [3, s.237-238].

## 3. Məhsuldarlığın artmasına səbəb olan maliyyə sistemlərinin biznes fəaliyyətinə təsir istiqamətləri

Bir sıra müəyyən tədqiqatçıların araşdırmalarında maliyyə mexanizminin mahiyyəti və məzmununun müəyyənləşdirilməsi ilə bağlı elmi məsələlər diqqət mərkəzində olmuşdur. Müasir iqtisadi münasibətlər şəraitində biznes mühiti bazar prinsiplərindən istifadə olunduğuna görə dəyişiklik ilə xarakterizə olunur, bununla əlaqədar əvvəlki iqtisadi sistemdən fərqli olaraq bu onun məqsəd və vəzifələrini dəyişir. Bütün bu kimi hallar yeni prinsiplərə uyğun maliyyə sisteminin nəzəri əsaslarını və maliyyə mexanizminin yeni bir anlayışını tələb edir. Bu formaların qarşılıqlı asılılığına əsaslanaraq, R.G. King və R. Levine maliyyə sistemlərinin uzunmüddətli iqtisadi böyüməyə təsir etdiyi yeni bir mexanizm təqdim edirlər. Onların təqdim etdiyi modeldə «maliyyə sistemləri məhsuldarlığın artmasına səbəb olan biznes fəaliyyətinə 4 yolla təsir göstərir:

1. Maliyyə sistemləri potensial sahibkarları qiymətləndirir və ən perspektivli layihələri seçirlər;
2. Maliyyə sistemləri perspektivli layihələrin maliyyələşdirilməsi üçün resursları səfərbər edir;
3. Maliyyə sistemləri investorlara qeyri-müəyyən innovasiya ilə əlaqəli riskləri şaxələndirməyə imkan verir;
4. Maliyyə sistemləri mövcud texnologiyalardan istifadə edərək mövcud məhsulların istehsalını davam etdirməklə müqayisədə yenilikdə iştirakın potensial faydalarını ortaya qoyur.

Ən çox inkişaf etmiş bir maliyyə sistemi sahibkarların və daha keyfiyyətli layihələrin seçilməsi, bu sahibkarlar üçün xarici maliyyənin daha səmərəli səfərbər edilməsi, innovasiya risklərinin şaxələndirilməsi üçün üstün vasitələrin təmin edilməsi və qeyri-müəyyən innovasiya biznesi ilə əlaqəli potensial böyük səmərənin dəqiqliklə müəyyənləşdirilməsi yolu ilə məhsuldarlığın artmasına kömək edir. Beləliklə, daha yaxşı maliyyə sistemləri məhsuldarlığın artım tempini sürətləndirərək iqtisadi artımı stimullaşdırır» [4, s.540].

Professor Z.F. Məmmədov və dosent A.H. Hüseynov hesab edirlər ki, «yığım və investisiyanın müxtəlif şəxslər tərəfindən həyata keçirildiyi bir toplumda yığımların investisiyaya dönməsi, maliyyə sisteminin varlığını meydana çıxarır. Maliyyə sistemi şirkət və fərdlərdən əmanətləri (depozitləri) cəlb edir və toplanmış vəsaitləri sonradan dövlət, şirkət və fərdlər arasında yenidən bölüşdürür. Beləliklə, öz vəsaitlərini təklif edən əmanətçilər (kreditorlar) və bu vəsaitlərə ehtiyacı olanlar (borclular) kimi iki qrup yaranır. Maliyyə sisteminin ən vacib çalışma mexanizmi borclama və borcvermə əməliyyatlarını asanlaşdırmaq və nizamlı bir şəkildə işlənməsini təmin etməkdir» [8, s.101-102].

Müasir şəraitdə ölkəmizin ərzaq təhlükəsizliyini təmin etmək, aqrobiznes sistemində istehsal olunan məhsulların rəqabət qabiliyyətini artırmaq və Azərbaycanın ÜTT-yə üzvolma ərəfəsində əhalinin ərzaq ehtiyaclarını ödəmək üçün aqrobiznes sistemində sahibkarların maliyyə sabitliyi təmin olunmalıdır. Bunun üçün bir sıra tədqiqatçıların maliyyə mexanizminin mahiyyəti və məzmunu ilə bağlı verdiyi açıqlamalarını və fikirlərini əsas götürdük. Aqrobiznes sistemində maliyyə mexanizminin mahiyyəti və məzmunu haqqında tərifi əsaslandırdıq ki, bu da resurs və təbii-iqtisadi potensial baxımından balanslaşdırılmış maliyyə resurslarının formalaşmasına və istifadəsinə yönəlmiş müəyyən bir maliyyə üsulları, alətləri, rıçaqları tənzimləyici və informasiya-metodiki dəstəkdir.

## 4. Aqrobiznes sistemində maliyyə mexanizminin yeni elementləri

Ölkəmizin və xarici alimlərin maliyyə elmində əhəmiyyətli nailiyyətlər əldə etmələrinə baxmayaraq, indiyədək aqrobiznes sistemində maliyyə mexanizminə dair az elmi araşdırma həyata keçirilmişdir. Bu baxımdan qismən müxtəlif tədqiqatçılar tərəfindən maliyyə mexanizminin iqtisadi mahiyyətinin araşdırılmasını əsas götürərək belə bir nəticə əldə edirik ki, aqrobiznes sistemində maliyyə mexanizminin bir sıra yeni elementləri daxil edilməlidir. Həmin elementlərə maliyyə planlaşdırmasını və proqnozlaşdırılmasını; fərdi maliyyə göstəricilərini; müəyyən maliyyə rıçaqlarını və təşviqlərini; maliyyə tənzimlənməsini; maliyyə axınlarının idarə edilməsinin xüsusiyyətlərini; dövlət maliyyə tənzimlənməsini; informasiya dəstəyini; maliyyə nəzarətini; maliyyə ilə əlaqəli müxtəlif səviyyələrdə qanunvericilik aktlarını aid edirik. Aqrobiznes sistemində maliyyə mexanizminin göstərdiyimiz bütün elementləri bir-biri ilə sıx bağlılıq təşkil edərək daim uyğun olmalıdır.

## 5. Maliyyə planlaşdırması və proqnozlaşdırılması

İndiki həqiqətlərə uyğun olaraq maliyyə mexanizminin elementlərindən biri dövlət və biznes qurumları səviyyəsində reallaşdırılan maliyyə planlaşdırmasıdır. Dövlət səviyyəsində maliyyə planlaşdırması regional və bələdiyyə səviyyələrində müvafiq planlarla təmsil olunur. Biznes qurumları səviyyəsində müəssisələrin, kəndli (fermer) təsərrüfatlarının, şəxsi yardımçı ailə təsərrüfatlarının istehsal və maliyyə fəaliyyəti planlaşdırılır. Maliyyə planlaşdırması vasitəsilə dövlət və özəl maliyyənin formalaşdırılması və istifadəsi üçün planlaşdırma parametrləri müəyyən olunur.

Biznes qurumlarının maliyyə planlaşdırması və proqnozlaşdırılması qismən investisiya siyasəti sistemi vasitəsilə mümkündür. Maliyyə siyasətinin bir hissəsini təşkil edən investisiya siyasəti dövlət idarəçiliyinin müxtəlif səviyyələrində həyata keçirilməklə yanaşı biznes qurumlarının maliyyəsinə müsbət təsir edir.

Bazar iqtisadiyyatı yolu tutan Azərbaycan Respublikasında istehsalın təşkili və aparılmasına, onun sferasının genişləndirilməsinə, yeni texnika və texnologiyanın tətbiqinə böyük məbləğdə investisiyalar tələb olunur. Bu tələbatın ödənilməsi, ölkə iqtisadiyyatının sahələrinə, xüsusilə aqrar bölməyə xarici investisiyaların cəlb edilməsi dövlətin həyata keçirdiyi investisiya siyasətindən bilavasitə asılıdır [5, s.193].

Aqrobiznes sistemində sahibkarlığın bütün planlaşdırma sistemi dövlət orqanları, iqtisadi subyektlərin xidmətləri və ya birbaşa sahibkarlar tərəfindən həyata keçirilir. Aqrobiznes sistemində planlaşdırmanın müxtəlif səviyyələrinin tənqidi təhlilindən belə nəticəyə gəlmək olar ki, üfüqi planlaşdırmanın rolunu gücləndirməklə müqavilə öhdəliklərinin, müqavilələrin və ya sahibkarların tərəfdaşları ilə digər qarşılıqlı əlaqələrinin düzgün əsaslandırılması və ciddi şəkildə yerinə yetirilməsi zəruridir. Buna əsasən, aqrobiznes sistemində sahibkarlığın planlaşdırma sistemi aşağıdakı 2 qarşılıqlı hissələrdən ibarətdir:

1. Dövlətin indikativ planlaşdırması (sahibkarları istiqamətləndirməyə yönəlmiş proqnozların, proqramların və digər planlaşdırma sənədlərinin hazırlanması da daxil olmaqla);
2. İqtisadi planlaşdırma (dövlət proqramlarının, o cümlədən biznes qurumlarının və onun məhsullarının istehlakçıların maraqlarına cavab verən proqnozları nəzərə almaqla).

Aqrobiznes sistemində istehsalın həyata keçirilməsində əksər kommersiya subyektləri və sahibkarlar iştirak edirlər ki, bunlar planlaşdırmanın göstəricisini müəyyənləşdirir. Belə bir iqtisadi şəraitdə biznes qurumları ölkənin mövcud qanunvericiliyinə əsasən, fəaliyyət göstərirlər. Bunun üçün ölkəmizdə bazar prinsiplərindən istifadə olunduğu şəraitdə məcburi xarakterli planlı qərarların tətbiq olunmasına ehtiyac vardır. Birbaşa biznes subyektlərinə təsir göstərən indikativ planlaşdırma şəraitində maliyyə rıçaqlarına zəmanətli (təminatlı) qiymətlər, dövlət subsidiyaları, kredit faizləri, sığorta və vergi dərəcələri və s. daxildir.

Aqrobiznes sistemində sahibkarlığın şaxəli inkişafı üçün müəyyən bir layihə həllinin reallaşdırılmasının məqsədəuyğunluğunun qiymətləndirilməsinə görə hazırlanmış biznes planlarından geniş şəkildə istifadə olunur. Biznes planının hazırlanmasında əsas məqsəd müəyyən bir cədvələ uyğun şəkildə fərdi planlaşdırılan tədbirləri maliyyələşdirməkdən ibarətdir. Aqrobiznes sistemindəki sahibkarlıq subyektlərində cari planlaşdırma çərçivəsində qarşıdakı ilə görə iqtisadi fəaliyyət məqsədilə illik istehsal və maliyyə planları hazırlanır. İstehsal-maliyyə fəaliyyəti planının hazırlanmasından əvvəl bütün struktur bölmələrin (xidmətlərin) mütəxəssisləri və rəhbərlərinin iştirak etdiyi böyük və əmək tutumlu iş aparılır. İllik planın hazırlanmasında bir neçə il üçün nəzərdə tutulmuş aşağıdakı sahələr saxlanılır: ixtisaslaşma, sahələrin tərkibi və ölçüsü, əkin dövriyyəsi sistemi, torpaqların münbitliyinin

yaxşılaşdırılması, artırılması və onlardan istifadənin intensivliyinin artırılması, heyvanların baş sayının artırılması, istehsal (sosial) obyektlərinin tikintisi, investisiyaların həcmi və s.

Aqrobiznes sistemində sahibkarlığın reallaşdırılması üçün zəruri olan müxtəlif növ istehsal vəsaitlərinə və vasitələrinə olan ehtiyacların planlaşdırılması maliyyə mexanizminin elementlərindən biri kimi elmi əsaslı norma və standartlara uyğun olaraq həyata keçirilir. Normativ dəstək istehsal, iqtisadi və sosial qərarlar üçün seçim edərkən dövlət maliyyə idarəetmə və iqtisadi fəaliyyətin bütün səviyyələrində dövlət proqramlarının inkişafında bir göstərici kimi istifadə olunur.

## 6. Maliyyə mexanizminin maliyyə nəzarəti elementi

Maliyyə mexanizminin əhəmiyyətli elementlərindən biri də biznes subyektlərinin rəhbər və mütəxəssislərinin məsuliyyətini artırmağa kömək edən müxtəlif planların icrası üçün həyata keçirilən maliyyə nəzarətidir. Maliyyə nəzarəti işçilərin iş fəaliyyətini yüksəltməyə kömək edərək ən yaxşısını müəyyənləşdirməyə və təşviq etməyə imkan verir. Maliyyə nəzarəti həm də səmərəli nəzarət növlərindən biri kimi əməliyyat planlarının icrasına vaxtaşırı nəzarət edir. Aqrobiznes sistemində fəaliyyət göstərən müəyyən bir subyektin işinin sonunda nəzərdə tutulan və əldə edilən, yəni faktiki mühasibat məlumatları ilə planlaşdırılan göstəricilər müqayisə olunur.

Aqrobiznes sistemində fəaliyyət göstərən subyektlər və onun bölmələri üçün planlaşdırılan göstəricilərin yerinə yetirilməsinin təhlili müəyyən bir dövrdə işin nəticələrini ümumiləşdirməyə imkan verir. Eyni zamanda aşkarlanmış çatışmazlıqları və onun yaranma səbəblərini müəyyənləşdirməyə, o cümlədən işin yaxşılaşdırılması və müəyyən idarəetmə qərarlarının verilməsinə görə tədbirləri müəyyənləşdirməyə şərait yaradır.

## 7. Aqrobiznes sistemində sığortanın təşkili məsələsi

Maliyyə mexanizminin digər vacib elementlərindən biri də aqrobiznes sistemində sığortanın təşkili məsələsi hesab edilməlidir. Aqrobiznes sistemində bu cür zərurət kənd təsərrüfatı məhsulları istehsalının yüksək risk dərəcəsi ilə üzləşməsi səbəbindən yaranır. Son illərdə koronovirus pandemiyasının zərərli təsirlərinin və baş vermiş quraqlıq hallarının nəticəsinə görə sığorta sistemində bir sıra həllolunası məsələlər aşkar olundu. Bu məsələlər daha çox aqrobiznes sistemindəki subyektlərdə sığorta haqlarını ödəmək üçün vəsaitlərin yoxluğu və özəl sığorta firmaları tərəfindən zərərin qarşısının alınmasının keyfiyyətsiz səviyyədə olması ilə əlaqəli məhsul sığortasına aiddir. Yaranmış bu kimi məsələlərin aradan qaldırılması üçün qarşılıqlı sığorta, istehsal və istehlakçı əməkdaşlığının inkişafı kimi yeni əhəmiyyətli potensial formalar yarana bilər.

Ölkə başçısının 27.06.2019-cu il tarixli, 1617-VQ nömrəli Sərəncamına əsasən, qəbul edilmiş yeni «Aqrar sığorta haqqında» Azərbaycan Respublikasının Qanunu aqrobiznes sistemində sığorta ilə əlaqədar yuxarıda göstərilən problemlərin aradan qaldırılmasında böyük rola malikdir. Bu Qanunun 8.2-ci maddəsində göstərilir ki, «aqrar sığorta orqanı nizamnaməsi

ilə müəyyən edilmiş qaydada aqrar sığorta sisteminin qurulması, inkişafını və dayanıqlılığını təmin etmək məqsədi daşıyır» [1]. Həmin maddəyə uyğun olaraq, ölkəmizdə aqrar sığorta sisteminin təşkil olunmasını, inkişaf etdirilməsini və dayanıqlılığını, eyni zamanda idarəedici strukturun yaradılmasını təmin edən və onun fəaliyyətinə nəzarəti reallaşdıran qeyri-kommersiya xarakterli «Aqrar Sığorta Fondu» formalaşdı. Aqrar Sığorta Fondu «Aqrar sığorta haqqında» Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1617-VQ nömrəli Qanununun tətbiqi və Aqrar Sığorta Fondunun yaradılması barədə ölkə Prezidentinin 19.08.2019-cu il tarixli, 809 nömrəli Fərmanına əsasən yaradılmışdır [2].

Müasir iqtisadi münasibətlər şəraitində ölkəmizin aqrobiznes sistemində sığorta mexanizmi fərdi kommersiya qurumlarının yox, bu sistemdə fəaliyyət göstərən sahibkarların mənafelərinə uyğun olaraq əhəmiyyətli dəyişikliklər tələb edir. Bunun üçün dövlət və bələdiyyə qurumları qarşılıqlı sığorta, qeyri-dövlət pensiya fondları və kənd təsərrüfatı kooperasiyası haqqında ölkənin mövcud olan qanunlarının müsbət potensialından istifadə etməlidirlər.

**Nəticə.** Son illərdə aparılan araşdırmalar nəticəsində belə qənaətə gəlmək olar ki, aqrobiznes sistemində maliyyə mexanizminin idarə edilməsinə maliyyə tənzimlənməsi vasitəsilə və qanunvericilik çərçivəsində hüquqi mexanizm formalaşdırmaqla (eyni zamanda, sənaye sferasında dövlət qurumlarının fəaliyyəti çərçivəsində inzibati mexanizmi, o cümlədən maliyyə siyasəti və sənaye sferasına dövlət dəstəyi çərçivəsində maliyyə-iqtisadi mexanizmi formalaşdırmaqla) yanaşmaq məqsədəuyğundur.

Müstəqilliyin ilk illərində ölkəmizin iqtisadiyyatının real sektorunda, xüsusən də aqrobiznes sistemində əsas vəsaitlərin köhnəlməsi, onların düzgün idarə edilməməsi, işçilərin ixtisaslarının aşağı olması, dövlət dəstəyinin olmaması və s. səbəblərə görə elmi nailiyyətlərin istehsalata tətbiq olmaması halları tez-tez müşahidə olunurdu. Bu cür xoşagəlməz halların tez-tez baş verməsi səmərəsizliyə və mənfi nəticələrə səbəb olurdu. Lakin son dövrlərdə həyata keçirilən uğurlu iqtisadi siyasət nəticəsində ölkəmizin iqtisadiyyatının sıçrayışlı inkişafı müşahidə olunur. Ölkəmizin milli iqtisadiyyatında və aqrobiznes sistemində maliyyə mexanizminin formalaşması və inkişaf mərhələləri, həmçinin dövlət maliyyə tənzimlənməsi və maliyyə dəstəyinə ehtiyacın zəruriliyi tədqiqatımızın növbəti hissəsində araşdırılacaqdır.

## Ədəbiyyat

1. Aqrar sığorta haqqında Azərbaycan Respublikasının Qanunu. (2019), Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli, 1617-VQ nömrəli Sərəncamı ilə təsdiq edilmişdir, Bakı.
2. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. (2019), Aqrar sığorta haqqında Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1617-VQ nömrəli Qanununun tətbiqi və Aqrar Sığorta Fondunun yaradılması barədə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 avqust tarixli, 809 nömrəli Fərmanı. Bakı, No.8.
3. İbrahimov İ.H. (2016), Aqrar Sahənin İqtisadiyyatı. Bakı, 656.

4. King R.G., Levine R. (1993), Finance, entrepreneurship and growth. Journal of Monetary Economics, Vol.32, 513-542.
5. Quliyev E.A. (2015), Aqrar İqtisadiyyat. Bakı: Elm, 320.
6. Lytvynchenko G. (2016), Financial Mechanism as a part of programme management. Procedia-Social and Behavioral Sciences, Vol.230, 198-203.
7. Məmmədov S.M. (2022), Rəqəmsal Maliyyə. Bakı-Gəncə: Elm və təhsil, 806.
8. Məmmədov Z.F., Hüseynov A.H. (2022), Maliyyə İqtisadiyyatı: Bankçılıq, Sığorta, Kapital Bazarı və Birja. Bakı: Azprint MMC, 546.
9. Бобылева А.С. (2018), Развитие аграрного сектора экономики России: Проблемы и приоритеты государственной финансовой политики. Княгинино: Вестник НГИЭИ, Том.3, No.82, 156-168.
10. Добросоцкий В.И. (2019), Обеспечение продовольственной безопасности в странах Евразийского экономического союза: Мировой и региональные аспекты. Москва: Одинцовский филиал МГИМО, 128.
11. Жума кызы Раиза (2021), Финансовый механизм стратегии развития сельского хозяйства Кыргызской Республики: Методология, концепция, использования. Дисс. докт. экон. наук. Бишкек, 275.
12. Ковалевой Т.М. (2014), Финансы, деньги, кредит, банки. Москва: КНОРУС, 256. 15
13. Медведева С.Н., Кутузова Т.Ф. (2017), Финансы. СПб: ГУАП, 357.
14. Смыслова О.Ю., Иванова А.А., Филоненко Н.Ю. (2021), Стратегическое развитие ресурсного потенциала аграрного сектора АПК и сельских территорий. Управленческий Учет, No.8-1, 210-218.
15. Соловьева Н.Е. (2022), Финансовый механизм осуществления государственной поддержки агропроизводителей. Белгород: Научный результат. Экономические Исследования, Tom.8, No.1, 99-108.
16. Старкова О.Я. (2017), Финансы. Пермь: Прокрость, 207.
17. Федулова С.Ф. (2018), Теория и Практика Финансов. Ижевск: ФГБОУ ВПО УдГУ, 580.
18. Юзвович Л.И., Марамыгина М.С., Князевой Е.Г. (2019), Финансы, денежное обращение и кредит. Екатеринбург: Изд-во Урал. федер. ун-та, 355.